

# Aqroparklar ölkə iqtisadiyyatının inkişafına müsbət təsir göstərir

**Son illərdə respublika Prezidenti cənab İlham Əliyevin düşünülmüş düzgün siyasəti nəticəsində Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi, iqtisadiyyatın neftdən asılılığının aradan qaldırılması, rəqabətədavamlı məhsulların istehsalı, eləcə də ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində irimiqyaslı layihələrin sürətlə həyata keçirilməsi bütün sahələrdə uğurlu nəticələrin əldə olunmasına zəmin yaratmışdır.**

Artıq ölkəmizdə idxaldan asılılıq aradan qaldırılır, hər il respublikadan minlərlə ton müxtəlif çeşidli ekoloji təmiz məhsullar “Made in Azerbaijan” brendi altında dünyanın müxtəlif ölkələrinə ixrac olunur. Bütün sahələrdə olduğu kimi, aqrar sektorun inkişafında da innovativ üsulla idarəçiliyə üstünlük verilir. Belə ki, dövlət başçısı cənab İlham Əliyevin müvafiq sərəncamları ilə yaradılan yeni aqroparklar kənd təsərrüfatının sənayeləşməsini sürətləndirir. Tovuz rayonunun Ceyrançöl ərazisində 2018-ci ildə tikintisinə başlanılmış 550 ha torpaq sahəsi olan “Tovuz Aqro” MMC də bu tip müəssisələrdən biridir. Müəssisəmiz “Pivot” suvarma sistemi ilə təmin olunmuş 430 ha sahəsi olan əkinçilik təsərrüfatından, 1500 başlıq heyvandarlıq kompleksindən, gücü saatda 10 ton qarışıq yem emal edən zavoddan, sutkada 90 baş iribuynuzlu və 200 baş xırdabuynuzlu heyvan kəsmək imkanına malik olan kəsim sahəsindən ibarətdir. Bununla yanaşı, aqroparkda sahəsi 700 $m^2$-ə yaxın 200 baş iribuynuzlu mal-qara tutan karantin binası tikilib istifadəyə verilmişdir. Kənardan gətirilən heyvanlar 21 gün burada qalır, karantin müddətini keçir və yerli iqlimə adaptasiya olunur. Heyvanların əsas sürüyə uyğunlaşması üçün bütün tədbirlər görülür. Hər hansı bir xəstəlik aşkarlandıqda ona qarşı lazımi tədbirlər aparılır. Bununla da fermada olan heyvanların hər hansı bir xəstəliyə yoluxma ehtimalı qalmır. Lazım gəldikdə heyvanlarda qarayara xəstəliyinə, dabaq, pasterellyoz və başqa yoluxucu xəstəliklərə qarşı qabaqlayıcı peyvəndlər aparılır. 21 gündən sonra yeni gətirilmiş heyvanlar bir daha müayinədən keçirilərək əsas sürüyə qatılır.

Ötən il heyvandarlıq kompleksində 1400 başa yaxın ətlik istiqamətli yüksək məhsuldar cins heyvan saxlanılmışdır. Bunlar əsasən “Şarole”, “Aberdin Anqus”, “Limuzin” və “Simmental” cinsindən olan iribuynuzlu heyvanlardır. Bu heyvanların yemə olan tələbatı öz əkinçilik təsərrüfatımızdan toplanmış məhsullar hesabına ödənilir. Ötən il aparılan düzgün aqrotexniki tədbirlər nəticəsində əkinçilikdə yüksək məhsuldarlıq əldə edilmişdir. Belə ki, hər ha-dan 60 sentner arpa, 50 s buğda, 50 s qarğıdalı, növbəli əkin qaydasında əkilmiş əkin sahələrindən isə hər ha-dan 26 tondan artıq silosluq yaşıl qarğıdalı kütləsi əldə edilmişdir. Bundan başqa, 32 min ədəd yonca, 50 min ədəd saman kipi tədarük edilmişdir. 2020-ci ilin məhsulu üçün payızlıq əkin optimal müddətdə aparılmış, 160 ha arpa, 100 ha buğda, 93 ha çovdar və yemlik noxud əkilmişdir. Ərazidə 71 ha çoxillik bitki olan (o cümlədən 31 ha yeni əkilmiş) yonca mövcuddur. Ötən ilin sonunda respublikanın qərb bölgəsində analoqu olmayan kəsim və çeşidlər üzrə qablaşdırma sexi istifadəyə verilmişdir. Bu günədək respublikada fəaliyyət göstərən qapalı müəssisələrə 100 tondan artıq ekoloji təmiz mal əti göndərilmişdir.



Aqroparkda yüksək səviyyəli abadlıq işləri davam etdirilmişdir. Müəssisənin ərazisinə və 2 km uzunluğunda yola asfalt örtüyü çəkilmiş, 2,5 ha əraziyə müxtəlif növ 1500 ədəd meyvə ağacları, qızılgül kolları və digər dekorativ bitkilər əkilmişdir. Qeyd etmək lazımdır ki, cari ildə heyvanların illik dövriyyəsini 4500-5000 baş olmasını nəzərə alsaq yem ehtiyyatında problem yaranacaqdır. Buna görə müəssisəyə əlavə 1000 ha torpaq sahəsinin ayrılmasına ehtiyac vardır. Bundan başqa, bəzi hallarda elektrik enerjisi ilə təminatda fasilələrin yaranması qiymətli elektrik cihazlarının sıradan çıxmasına səbəb olur. Buna görə yeni yüksəkgərginlikli elektrik naqillərinin çəkilməsinə ehtiyac vardır. Müəssisədə su təchizatı ilə bağlı çətinliklərin aradan qaldırılması üçün Kür çayı üzərində yeni nasos stansiyası tikilmiş, mart ayının sonuna qədər istifadəyə verilməsi gözlənilir. Hazırda müəssisədə 86 nəfər çalışır, yaxın gələcəkdə işçilərin sayı 130 nəfərə çatdırılacaqdır. Göründüyü kimi, aqroparkların yaradılması ölkədə ərzaq bolluğu yaratmaqla yanaşı, işsizliyin aradan qaldırılmasında da mühüm rol oynayır.

**Şadkamal HÜSEYNOV,**
**Tovuz Aqro MMC-nin direktoru.**